# DÜNYADA İSLAM VƏ MÜQƏDDƏS «QURANİ-KƏRİM»İN İQTİSADİ İDEYALARI

**(əvvəli ötən sayımızda)**

**6.2. Ölçüdə və çəkidə dəqiqlik**

Ölçü və çəki haqqında müqəddəs «Qurani-Kərim»in bir çox ayələrində bəhs edilir və bu əmələ dəfələrlə müraciət edilir:

«Ölçüdə və çəkidə düz olun…» (6: Əl-Ən'am («Davar») surəsi, 152-ci ayə, səh. 123);

«Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini [və ya onların haqqını] azaltmayın (7: Əl-Ə'raf («Sədd») surəsi, 85-ci ayə, səh. 134);

«Vay halına çəkidə və ölçüdə aldadanların!» (83: Əl-Mutəffifin («Çəkidə və ölçüdə aldadanlar») surəsi, 1-ci ayə, səh. 621). Həmçinin, 11-ci surənin 86-cı, 17 surənin 35-ci, 26-cı surənin 181-ci və s. ayələrində bu amilə diqqət çəkilir. Müasir elm sübut edir ki, bütün dünya ölçü üzərində qurulmuşdur. Kainatdan tutmuş yerin üzü və təkinə qədər. Bu müqəddəs kitabda göstərilən «ölçü» daha geniş mənada nəzərdə tutulur. Təbiətdə, cəmiyyətdə və insan həyatının hər hansı bir sahəsində ölçü pozularsa, hazırkı iqtisadi təfəkkürlə tənzimləmə itərsə, mütləq ölçü obyekti – yemək, içmək, geymək, bina, qurğu, avadanlıq, kollektiv, firma, müəssisə, … , nəticədə cəmiyyət də pozulacaq, dağılacaq və məhv olacaqdır.

**6.3. Sələmçiliyin qadağan edilməsi**

İslamın, onun müqəddəs kitabı olan «Qurani-Kərim»in birbaşa və sərt qadağan etdiyi əməllərdən biri, bəlkə də birincilərdən biri insan həyatında və işgüzar fəaliyyətdə sələmçiliyin qadağan edilməsidir. Allah buyurur ki, «Sələm [müamilə, faiz] yeyənlər [qiyamət günü] qəbirlərindən ancaq cin vurmuş [dəli] kimi qalxacaqlar» (2: Əl-Bəqərə («İnək») surəsi, 275-ci ayə, səh. 41); «Allah sələmi [sələmlə qazanılan malın bərəkətini] məhv edər, sədəqələri [sədəqəsi verilmiş malın bərəkətini] isə artırar» (2: Əl-Bəqərə («İnək») surəsi, 276-cı ayə, səh. 41);

«…Sələmi [borc üzərinə qoyduğunuz faizi] qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!» (3: Ali-İmran («İmran surəsi») surəsi, 130-cu ayə, səh. 57). Göründüyü kimi, sələmçilik insan həyatında və fəaliyyətində ən yolverilməz, qadağan edilmiş və haram əməl hesab edilir. Sələmə pul verənlər əvvəl-axır ziyana düşür, xeyir görmür və məhv olurlar.

Dünya iqtisadi təcrübəsi göstərir ki, «Müqəddəs Quran»ın əsas prinsiplərindən yayınmaq, kənara çıxmaq, əməl etməmək və əhəmiyyət verməmək böyük iqtisadi fəsadlar yaradır və iqtisadi böhranlara gətirib çıxarır. 2008-ci ilin dünya maliyyə böhranı nəticəsində dünyada neft qiymətləri kəskin aşağı enmiş, ölkələrin milli valyutaları dəyərdən düşmüş, neft ixrac edən ölkələrin qızıl-valyuta ehtiyatları azalmış, inflyasiya artmış və qiymətlər bahalaşmışdır ki, bunun da əsas səbəblərindən biri banklar tərəfindən verilən kreditlərin (sələmçiliyin) süni və şişirdilmiş faiz kreditləri olması, nəticədə dövriyyədə pul kütləsi artıqlığının yaranması və əhalinin pul ehtiyatlarının dəyərdən düşməsi olmuşdur.

Lakin nəzərə almaq lazımdır ki, dünya bank sistemi yalnız iqtisadi aktivliyə, iqtisadi fəaliyyətin genişlənməsinə xidmət edir və yeni yaradılan dəyərin maliyyə əsasını təşkil edir. Təcrübədə bankçılıq yeni yaradılan dəyərdə iştirak payı kimi qiymətləndirilir. Bunun üçün də bank kreditləri, bank borcları «göydən düşmə» bank gəlirlərinə görə yox, görülən işin reallığına, alınan borcun ödənilmə imkanlarına görə real, hər tərəf üçün əlverişli bank faizləri ilə verilməlidir. Bu da həm kredit (borc) verən və həm də borc (kredit) alan tərəflərin marağına və xeyrinə xidmət etmiş olar.

Son 60-70 ildə sələmçilikdən (faizlə pul verməkdən) imtina etmiş, islamın sələmçiliyi qadağan edən prinsipinə əməl edən, işgüzar fəaliyyətdə nəzərdə tutulan layihələrdə özünün iştirakı, payı və fəaliyyəti ilə təmsil olunan İslam banklarının yaranması, sayının artması və əhəmiyyəti bu istiqamətdə mütərəqqi, innovativ, perspektivli və halal hesab edilir.



**6.4. İsrafçılığa yol verməmək**

İsrafçılıq bilərəkdən olanı yox etməkdir. Allah verən ruzini dağıtmaqdır. Çəkilən zəhməti bada verməkdir. Ehtiyacı olanları görməmək və korluqdur – nankorluqdur. Hər verilənі, əldə edilənі həddində işlətməmək və istifadə etməməkdir. İsrafçılıq yoxluğa gedən yoldur. Müqəddəs «Qurani-Kərim»də deyilir ki, «Sizə verdiyimiz ruzilərin təmizindən [halalından] yeyin, lakin bunda həddi aşmayın [israfçılıq, xəsislik və nankorluq etməyin, ehtiyacı olana şəri qayda üzrə kömək göstərin]» (20: Taha surəsi, 81-ci ayə, səh. 292). Nəzərə almaq lazımdır ki, israfçılığa yol verməməklə bir nəfərin zəruri ehtiyacını ödəmək olar. Hər hansı israfçılığın qarşısının alınması yeni dəyərin yaranmasına səbəb olur və nəticədə əlavə məhsul ortaya çıxır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2019-cu ilin əvvəlinə verdiyi məlumata görə, dünyada 56 milyon adam aclıqdan əziyyət çəkir. Təəssüf ki, bunların əksəriyyəti Əfqanıstan, Yəmən, Suriya, Sudan və s. kimi siyasi sabitliyi olmayan və savadsızlıq səviyyəsi yüksək olan müsəlman ölkələridir.

**6.5. Qənaətcillik**

İsrafçılıqla qənaətcillik bir-birinə əks olsalar da, cəmiyyət həyatında və təsərrüfatçılıqda çox fərqli xüsusiyyətləri vardır. Əgər israfçılıq mövcud olanı, Allah verən ruzini dəyərləndirməmək, itib-batmasına, səpələnməsinə yol vermək və dağıtmaqdırsa, qənaətcilik bunun tam əksinə xidmət edir. Mümkün olan qədər heç nədən və heç yerə istifadə etməməklə artıma nail olmaq: «Qohum-əqrəbaya da, miskinə də, [pulu qurtarıb yolda qalan] müsafirlərə də haqqını ver. Eyni zamanda [mal-dövlətini əbəs yerə] sağa-sola da səpələmə!» (17: Əl-Əsra («Gecə vaxtı seyr») və ya Bəni-İsrail («İsrail oğulları») surəsi, 26-cı ayə, səh. 252).

Hər ilin Qurban bayramı zamanı Həcc ziyarətinə gedərək, Allahın evini ziyarətə gələnlərin Minada qurban kəsmələri, bu qurbanlıqların yüksək gigiyenik normalara uyğun təmizlənməsi, bükülməsi və soyudulması yolu ilə aclıqdan əziyyət çəkən və ehtiyacı olan ölkələrin əhalisinə göndərilməsi bütün dünya ictimaiyyəti və bütün dinlər tərəfindən yüksək qiymətləndirilir, alqışlanır və təbliğ edilir. Bu da qənaətcillikdən ortaya çıxır.

**6.6. Vergilərin mütləqliyi**

Dünyada ilk dəfə vergi sistemi Qədim Misirdə olub. Həmçinin, ilk səmavi kitab Tövratda (fəsil 47, şeir 24) və Bibliyada vergilər təsvir olunub. Sonra Fars imperiyası dövründə, e.ə. 500-cü ildə I Böyük Dara tərəfindən nizama salınan sabit vergi sistemi həyata keçirilmişdir.

XV əsrdən başlayaraq Osmanlı imperiyasında, XVII əsrdən Avropa ölkələrində vergi sistemi yaranmışdır.

Sadə vergilər bəşər tarixinin özü qədər qədimdir. İbtidai icma quruluşunun dağılması və ilkin dövlətlərin yaranması ilə vergilər də dövlətin maliyyə mənbələrinin əsas elementi kimi meydana çıxmışdır. Tarixdə məğlub edilmiş xalqların qaliblərə ödədiyi bac-xərac verginin ilkin forması hesab olunur. Tarixi inkişaf dövründə müxtəlif vergilər və vergi sistemləri yaradılmış, bəzi qəribə vergilər də mövcud olmuşdur. Məsələn, «hava vergisi», «qapı-pəncərə vergisi», «qorxaqlıq vergisi», «şlyapa vergisi», «saqqal vergisi», «kölə vergisi» və s. vergilər.

İslam dünyasında hələ VII əsrdən başlayaraq, «Qurani-Kərim»in nazil olması ilə əlaqədar olaraq səciyyəvi dini vergilər – «zəkat», «xums», «sədəqə», «fitrə» kimi vergilərə başlanmışdır və indi də davam edir: «Qurani-Kərim»də buyurulur ki, «… Onların mallarından sədəqə [zəkat] al. Bununla onları [günahlardan] təmizləmiş, pak etmiş [mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış] olarsan» (9: Əl-Tövbə («Tövbə») surəsi, 103-cü ayə, səh. 171).

İslam dininin beş şərti – kəlmeyi şəhadət, namaz, oruc, həcc və zəkatdır. Zəkat (ərəbcə – çoxaltma, təmizlik) müsəlmanların verdiyi, «Quran»da buyurulmuş, toplama qaydası və həcmi şəriət qanunları ilə müəyyənləşdirilmiş dini vergidir. Bu da islam dinində öz gəlirindən verməli olduğu hissələrin (müasir dövrdə zəruri dövlət vergilərinin ödənilməsindən sonra) nə qədər mühüm olduğunu göstərir. Ənənəvi islam vergi sistemində bu vergilərin – zəkat və xumsun ödənilməsi həddi «Qurani-Kərim»də dəqiq müəyyən edilmişdir. Mütləq ödənilməlidir. Lakin dövlət vergilərindən fərqli olaraq onun ödənilməsinə heç kim və heç bir orqan tərəfindən nəzarət edilmir, yalnız özü ilə Allah arasında baş verir. Axı, Allah hər işi görür və bilir.

**(ardı var)**

**Hacı Müzəffər Məmmədov,**
**i.e.f.d., ADİU-nun dosenti,**
**Azərbaycan Respublikasının**
**Əməkdar müəllimi,**
**"Qızıl Qələm" mükafatı laureatı**